# COP29-dan gözləntilər: İqlim gündəliyi sülhə və gələcək nəsillərin rifahına xidmət edəcək

"İqlim dəyişikliyi" anlayışı müasir dünyanın qarşısında dayanan yeni çağırışdır. İnsanı təhdid edir, yoxsa gələcək dünyanın və nəsillərin rifahını düşünür? Bu suallara cavab tapmaq üçün bu anlayışa sadəcə termin kimi deyil, onun keçmiş və gələcək arasında tarixi inkişafına baxmaq lazımdır. Təəssüf ki, sadə qəbul etdiyimiz "iqlim dəyişikliyi" termini özünü ekstremal hava hadisələri, temperaturun yüksəlməsi və ekosistemlərin dəyişməsi formasında göstərməklə, təkcə təbiətin tarazlığını pozmur, həm də milyonlarla insanın, canlının sabit yaşam tərzlərinə ciddi təsir edir. Quraqlıq, daşqınlar, kənd təsərrüfatı məhsuldarlığının azalması, yaşayış yerlərinin dəyişdirilməsi, qida və su resurslarının azalması bəşəriyyəti ciddi təhdid edir. İqlim dəyişikliyi, eyni zamanda, qlobal böhrana çevrilərək insan sağlamlığı, təhlükəsizliyi və rifahı üçün ciddi təhdid yaratmaqdadır. Məhz buna görə iqlim dəyişikliyi məsələsini təkcə ekoloji rakursdan deyil, humanitar, iqtisadi, sosial və təhlükəsizlik aspektindən də dəyərləndirmək lazımdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Həmkarlar İttifaqı Komitəsinin sədri, filologiya üzrə fəlsəfə doktoru, dosent Yusif Ağayev söyləyib.

O qeyd edib ki, qarşımızda dayanan bu çağırışa tarix və gələcək kontekstində baxsaq görərik ki, sənayeləşmə, əl əməyinin texnika ilə əvəz olunması iqlim dəyişikliyi və bir çox ekoloji problemlərin kəskin artmasına səbəb olub. İqlim dəyişikliyində bir sıra antropogen amillər olsa da, bu dəyişikliyə təsir edən əsas amil istixana qazlarının kəskin səviyyədə emissiyasıdır. İstixana qazları atmosferdə orta temperatur dərəcəsinin dəyişməsinə gətirib çıxarır ki, bu da problemin əsasını təşkil edir. İqlim dəyişikliyinə qarşı önləyici tədbirlərin görülməsi baxımından qlobal dialoq platforması olduqca əhəmiyyətlidir.

Risklərin idarəedilməsi və cəmiyyətin gələcək inkişafını təmin etmək üçün dialoq zəruri alətidir. Bu gün dünyada baş verən hadisələrin təhlili göstərir ki, bu sahədə dialoqun qurulması həyati zərurətə çevrilməkdədir. Ədalətli baxış, yaxşı idarəetmə, insan potensialı - məhz bu üçlü unikal yanaşma ölkəmizi iqlim dəyişikliyi sahəsində də qlobal platformaya çevirib. Yeni idarəetmə modeli onu diktə edir ki, korporativ sosial məsuliyyət iqlim dəyişikliyi çağırışının ən yaxşı cavablarından biridir və gələcək nəsillərin rifahına xidmət edən innovativ idarəetmə metodudur. Belə ki, iqtisadi, hüquqi, etik və könüllü öhdəliklərinin məcmusunu əhatə edən bu amillər problemin həllində iştirak edə biləcək ən yaxşı yanaşma ola bilər. Ətraf mühit (E), sosial (S) və idarəetmə (G) təcrübələrinin ölçü meyarı ESG olaraq təsbit edilməkdədir.

2024-cü ilin noyabrında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın ev sahibliyi etməsi ölkəmiz adına tarixi qərardır. Bu qərar Azərbaycana və onun liderinə olan etimad və etibarın ifadəsidir. Eyni zamanda, Prezident İlham Əliyevin növbəti parlaq qələbəsidir. Liderlik, müdrik düşünmə bacarığı, yüksək intellekt, mükəmməl diplomatik qabiliyyət, effektiv və məqsədyönlü yorulmaz fəaliyyəti ilə Azərbaycanı qlobal miqyasda ön sıralara çıxaran, səmimiyyət və yüksək kommunikasiya qabiliyyəti, münasibətlərdə məntiqli ardıcıllıq və etibarlılıq kimi şəxsi keyfiyyətləri ilə beynəlxalq təşkilatlar və dünya liderləri tərəfindən etibarlı tərəfdaş kimi qəbul edilməsi Prezident İlham Əliyevin fəaliyyətinin uğurlu məntiqi nəticəsidir.

"Azərbaycan Prezidentinin yürütdüyü siyasi kursun prioriteti respublikamızın dünya dövlətləri arasında rəqabətədavamlı və sabit inkişaf sahəsində layiqli yer tutması, keyfiyyətə əsaslanan iqtisadi yüksəlişə nail olması və vətəndaşlar üçün yüksək həyat standartlarının təmin edilməsidir. Bu hədəfə çatmaq üçün ardıcıl tədbirlər görülüb və intellektə əsaslanan cəmiyyətin formalaşdırılması ideyasının gerçəkləşdirilmə mexanizmləri işə salınıb. Qeyd etmək lazımdır ki, neft və qaz ehtiyatlarına malik Azərbaycanın milli prioritetləri arasında təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi öhdəliyi də var. Bu qlobal forumda əməkdaşlıq Azərbaycana təkcə ekoloji problemləri həll etmək deyil, həm də özünü müasir innovasiyalara və rəqabətqabiliyyətli insan potensialının inkişafına töhfə verən ölkə kimi göstərmək imkanı verir. COP29-un Bakıda keçirilməsi ölkəmizin bu statusunun qlobal miqyasda tanınmasının, siyasi və iqtisadi nüfuzunun, bərpaolunan enerji istehsalı sahəsində zəngin potensiala malik olmasının göstəricisidir", - deyə dosent Yusif Ağayev fikrini yekunlaşdırıb.

**AZƏRTAC**
**2024, 18 oktyabr**